Türküstan.- 2020.- 25-30 avqust.- S.21.



**Rəhmət Babacan**

*Rəhmət Babacan -1998-ci ildə Özbəkistanın Xarəzm vilayətində dünyaya göz açıb. “Kitab dünyası” qəzetində çalışır.*

# Səniz keçən sentyabr

Sentyabr: Səssiz, aydın bir gecə...
Qəlbimdə duyğu, sinəmdə atəş.
Sonsuz eşqə inanmaq
ovuc içi boyda bir iddiadır,
amma cənnətə bərabərdir...
Bir quru ağaca sarılmaq belə
titrək bir eşqi oyandırır...
Birgə getdiyimiz kafenin
olduğu küçədə
gəzmirəm.
Çünkü Səni xatırladır.
Saçlarının həsrəti
əllərimi yandırır.
Heç kimin
kömək etmədiyi payız
yenə hirslidir.
Sən getdin.
Bir iz belə qoymadan
məni tərk etdin...
Qaşqabaqlı okean
səssiscə dalğalandı.

Kədər içində kədər,
qəm içində qəm...
Ürəyim yandı...
Nigaranlıq içində gülüş...
Amansız qədər...
Gözlədim.
Qışdan sonraya qaldı gülümsəməm...
Sentyabr: səssiz qəlb toxunuşlarının
həsrət və kədər dolu dərin sahilində
soyuq qışın bitməsini gözləyirəm.
Bahar çiçəklərinin arzusuyla...

***

Sənə ürəkdən xoşbəxtlik dilədim.
Gələcəyinə əmin idim.
Həyətdəki çiçəklər belə
təşvişlə gözlədilər.
Xəyalın və eşqin
yalan olduğunu
onlar da bildilər.
Bir-birinə sarılmaq istəyən
xoşbəxt cütlük
qəfildən
özlərini işgəncənin
qoynuna atdılar.
Hər şey paramparça oldu...
Çiçəklər saçlarını yoldu...
Yağışlarla yuyulan bir dərədə
sonsuz duyğu
dalğa kimi şahə qalxdı.
Soyuq küləklər də
onları sıxdı.
Bir ovuc qırov
gözümüzə düşdü...
Təmiz hava da
kifayət etmir.
Eşqin dərmanı
indi gözə az dəyir.
Həsrətin komasında
payız nəğmə söyləyir.
Evlilik xəyallarımın ocağına
atəş düşdü...

***

Şəhər diksinib
yuxusundan oyandı...
Üç aylıq yuxu
ortadan qeyb oldu.
Küçələr insanla doldu...
Göyləri titrədən
qəhqəhələrlə dolu
məktəblərdə, universitetlərdə
bir neçə nəfər
susamış insan
tələsik yeriyir.
Sentyabr sabaha inamdır...
Sentyabr xəyallarımdır, arzumdur.
Qəlblərdə titrək tutqu
sinədəki şən, nəşəli bir ruhdur.
Biz "eh" deyib yaşayarıq...
Bahardan qalan gözəlliklər
bir az da payızdan uzaqlıq
bizə xoşbəxtlik gətirir.
Səssizcə
dayanacaqlarda gözləyirik.
Avtobusda nəşə axtarırıq.
Başqalarına xoşbəxtlik verilər.
Amma nədənsə
yanımda olsa belə
məndən qaçar.
İçimdə nəşə yoxdur,
sevinc yoxdur...
Qapımı kədər açar.
Aman, Tanrım!
Özümə hakim ola bilmirəm.
Onun üçün darıxıram.
Bəlkə də
dərin bir yuxudadır indi...

***

Gözəl bir Ürgənç gecəsində
sevigilimə can atıram.
Başımı şeirlə qatıram.
Ruhu qidalandırmayan hər şey
göy üzünü qaraldır.
Payız qoxan ruhum
qarmaqarışıqdır.
Gəl də ruhuna
bu dünyanı sığdır?...
Heç kimim yoxdur.
Yalnızlıq... kimsəsizlik.
Gözlərimə kədər dolub.
Xoşbəxtlik
sis-dumanda yox olub...
Eh, ayların ortasında dayandım.
Sentyabrda
hicran atəşində yandım.
Sentyabr və yağışlı oktyabr.
Alnım necə də qırışlandı...
Qəlbimin atışlarında
Sən varsan, yar...
Sağalmaz yaralar var.
Ayrılıq məni
uzaqlara,
uzaq sahillərə çağırdı.
Gizli qüvvə
çəkildi bir kənara.
Mən də yoruldum...
O zaman səninlə,
kədərimlə tanış oldum.
Sonra sənin həsrətini tanıdım...

***

Sənin Sentyabr ayın var,

Sən Sentyabr ayındasan...
Mənimsə heç bir şeyim yoxdur!

***